## 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür

**❒ Beynəlxalq Müəllimlər Gününün qeyd edilməsinə dair qərarı ilk dəfə 1966-cı il oktyabrın 5-də UNESCO verib. Bu təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-i müəllimlərin peşə bayramı günü kimi qeyd edilir.**

# “Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır”



Müəllim gənc nəslin mənəvi aləminin memarı, cəmiyyətin etibarını qazanmış şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini – öz ümidi, öz gələcəyi olan uşaqları müəllimə etibar edir. Bununla sanki məktəbin, müəllimin məqsədi, vəzifəsi müəyyənləşdirilir: xalqın, dövlətin gələcəyini formalaşdırmaq. “Təhsil haqqında” Qanunda təsbit olunduğu kimi, müəllimlik borcu “Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir”.

Ümummilli liderimiz Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirmiş, haqqında xoş sözlər söyləmişdir. O, öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürək dolusu danışardı. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimlərə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. O deyirdi: “Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir”.

Ulu öndərimiz Heydər Əliyev təhsillə bağlı bütün islahatların ideyavericisi idi. Ulu öndər həm də bu ideyaların həyata keçməsinə bilavasitə özü rəhbərlik edirdi. Təhsillə bağlı olan bütün insanlar həmin dövrü təhsildə sıçrayış illəri hesab edirlər.Təhsilin dinamik inkişafı ulu öndərimizin adı ilə bağlıdır.

Bu günün təhsili də ulu öndərimizin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və qayğısı ilə tam əhatə olunduğundan strateji mahiyyət kəsb edir. Ona görə də müasir tələblərə cavab verən məktəblərin sayı ilbəil artır. Mən də müəlliməm və bu qayğını həmişə hiss etmişəm. “Tərəqqi” medalına, “Əməkdar müəllim” adına layiq görülmüşəm, iki dəfə “İlin müəllimi” seçilmişəm. Almaniyanın Lap-Lambert nəşriyyatında ingilis dilində nəşr olunan iki dərsliyin həmmüəllifiyəm.

Biz müəllimlər anlayırıq ki, məktəbin inkişafı yeni ideyalarsız mümkün deyil. Bu ideyalar, həm də son illərin gündəmindən düşməyən şagirdyönümlü təhsil pilləsinin əsasını təşkil edir.

Ənənəvi dərslərdən, demək olar ki, imtina etmişik. Məktəbin tədris bazası imkan verir ki, burada yeni metodları, texnologiyaları geniş tətbiq edək.

Məktəbdə öz işini sevən, əməyinə yaradıcı yanaşan, uşaqlar və valideynlərlə münasibət qurmağı bacaran müəllimlərimiz yetərincədir.

Şəhla Əliyevanın başçılıq etdiyi şagird komandası dəfələrlə xarici ölkələrdə keçirilən bilik yarışlarından qızıl və gümüş medallarla qayıtmışdır.

Məktəbimizin məzunlarının əksəriyyəti yüksək balla ali məktəbə daxil olur. 600-dən çox bal yığan şagirdlərimizin sayı ilbəil artır.Bu il şagirdlərimizdən İlqar Məmmədov 700 bal toplayaraq ali məktəbə daxil olmuşdur. Bu, əlbəttə, müəllimlərimizin gərgin və səmərəli fəaliyyətlərinin nəticəsidir.

Kollektivimiz bütöv komanda təəssüratı bağışlayır. Hamı anlayır ki, insan tək öz varlığı ilə yox, onu əhatə edənlərlə bir yerdə bütövdür. Müəllimlərin bir-birinə münasibəti pedaqoji mübadilə baxımından faydalıdır. Məktəb rəhbərliyinin qayğısını hər bir müəllim hiss edir. Ehtiyacı olanlara kollektiv köməyini əsirgəmir. Pedaqoji peşəkarlığını artırmaq üçün kollektivin hər bir üzvünə şərait yaradılıb. Müəllim – şagird münasibəti zamanın tələbinə uyğun qurulub. Məktəbdə şagirdlərdə müxtəlif bacarıqların formalaşması üçün lazımi şərait vardır. Əsas məqsədimiz ölkəmizin inkişafına xidmət edə biləcək, savadlı, bacarıqlı insanların yetişdirilməsidir

***Kərim CƏFƏRLİ,***
***İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın riyaziyyat müəllimi,***
***Əməkdar müəllimi***